MÜBARİZ KEŞİKDƏ

18 iyun 2020-ci il
Cümə axşamı

№ 20 (3485)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev

İyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 9-da Rusiya Federasiyasının dövlət bayramı – Rusiya Günü münasibətilə Prezident zati-aliləri cənab Vladimir Putinə təbrik məktubu göndərib.

Dövlətimizin başçısı iyunun 10-da milli bayram – Təvəllüd Günü münasibətilə Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə təbrik məktubu göndərib.

Ölkəmizin rəhbəri iyunun 11-də Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

İyunun 11-də dövlətimizin başçısı Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 12-də Şabran rayonunun Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)–Şahnəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

İyunun 12-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının iqtisadi inkişafında xüsusi xidmətlərinə görə Şahin Abdulla oğlu Mustafayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 12-də Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokolun təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Dövlətimizin başçısı iyunun 12-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, həmçinin Azərbaycan və Dağıstan xalqları arasında dostluq, əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Maqomedali Maqomedoviç Maqomedovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

İyunun 16-da dövlətimizin başçısı "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə fərman imzalayıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 16-da Salyan rayonunun Yuxarı Noxudlu–Aşağı Noxudlu–Xurşud–Aşağı Kürkəndi avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Ölkəmizin rəhbəri iyunun 16-da Azərbaycan Respublikasının səhiyyə işçilərinin mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.

ENERGETİKA SAHƏSİ UĞURLA İNKİŞAF EDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib.

"Əhmədli" yarımstansiyası tamamilə yenidən qurulub, buradakı transformatorlar yeniləri ilə əvəzlənib, yarımstansiyanın bütün qurğuları müasir səviyyəyə çatdırılıb. Yenidənqurma işləri zamanı yarımstansiyanın idarəetmə binası da inşa olunub. Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalini, sosial, iqtisadi və sənaye müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev "Əhmədli" yarımstansiyasını işə salıb.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən

işlər barədə məlumat verib.

Bildirilib ki, müasir avadanlıq və qurğuların quraşdırılması yarımstansiyanın səmərəliliyini və gücünü artırıb. Burada 3 köhnə transformatorun daha yeni transformatorlarla əvəzlənməsi yarımstansiyanın ümumi gücünü 166 mVA-dan 240 mVA-ya çatdırıb. Yarımstansiyada aparılan yenidənqurma işləri istehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün xüsusi rejimdə - onun fəaliyyəti dayandırılmadan həyata keçirilib.

Ümumilikdə, son iki ildə Prezident İlham Əliyevin tapşırığı ilə elektrik stansiyaları ilə yanaşı, ötürücü şəbəkədə də geniş yenidənqurma, təmir və bərpa işləri həyata keçirilir. Hazırlanan Reabilitasiya Proqramı çərçivəsində bu dövrdə 1 ədəd 500, 2 ədəd 330, 2 ədəd 220 və 10 ədəd 110 kV-luq yarımstansiya yenidən qurulub, 12 yarımstansiyada təmir-bərpa işləri həyata keçirilib.

MİLLİ QURTULUŞ GÜNÜNDƏ POLİSƏ TÖHFƏ

15 iyun - Milli Qurtuluş Günündə Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsinin və Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Bölməsinin yeni inzibati binalarının açılışı olub.

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov hər iki tədbirdə iştirak edib.

Məlumat verilib ki, 2 mərtəbəli inzibati binalar ən müasir standartlara uyğun inşa edilib, bütün zəruri avadanlıq, kommunikasiyalar və texniki qurğularla, mebel və inventarla təmin olunub. Hər iki binanın daxilində silah saxlama otağı, idman sağlamlıq zonası və yeməkxana var. Yeni tikililər ventilyasiya, mərkəzi istilik sistemi, qazanxana və rabitə-kommunikasiya xətləri ilə təmin edilib, digər yardımçı sahələr yaradılıb. Ərazilər hasarlanıb, abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

Ardı 2-ci səhifədə.

Qlobal böhran şəraitində uğur modeli

Azərbaycanın pandemiya ilə mübarizə planlarını öz hesabına həyata keçirməsi ölkə Prezidentinin siyasi müdrikliyinin və qətiyyətinin göstəricisidir.

Dünyanı çətin sınaq qarşısında qoyan pandemiya getdikcə böyük ölkələrin iqtisadiyyatına daha ciddi təsir göstərməkdədir. Yəni koronavirus bəlası yalnız can almır, sosial-iqtisadi problemləri də dərinləşdirir. Mütəxəssislər qeyd edirlər ki, bu il dünya iqtisadiyyatı 4 faiz azalacaq.

Pandemiyanın iqtisadiyyata mənfi təsirini azaltmaq üçün dünyanı iqtisadi və siyasi gücünü əlində cəm edən dünya nəhəngləri bu problemdən az itki ilə qurtulmaq üçün fərqli yanaşma tərzini və öz metodlarını ortaya qoydular. Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycan da həmin dövlətlər sırasındadır. Koronavirus hələ qlobal xarakter almadan qabaqlayıcı tədbirlər görən Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində pandemiyanın Azərbaycan iqtisadiyyatına mənfi təsirləri minimuma endirildi.

Vətəndaşlarımızın sağlamlığına yönəlmiş qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır.

Əgər koronavirusla bağlı dünya üzrə rəsmi statistikanı təhlil etsək, Azərbaycanın bu sahədə vəziyyətinin digər ölkələrlə müqayisədə xeyli dərəcədə qənaətbəxş olduğunu söyləyə bilərik.

Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Azərbaycan bu sahədə də öz modelini ortaya qoydu və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bildi.

Bu müddət ərzində insanların sağlamlığı ilə yanaşı, iqtisadi fəallığımızı da qoruyub saxladıq. Müəyyən iqtisadi sahələrdə məhdudlaşdırıcı addımlar atılsa da artım da nəzərə çarpdı. Belə ki, pandemiya dövründə qeyri-neft sektorunda 14, kənd təsərrüfatında isə 3,6 faiz artım müşahidə olundu.

MİLLİ QURTULUŞ GÜNÜNDƏ POLİSƏ TÖHFƏ

Əvvəli 1-ci səhifədə.

Nazir yeni binaların foyesində olan ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətini, Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurları, daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərlə tanış olub, növbətçi hissələrə, xüsusi avadanlıq və kompüter sistemi ilə təchiz edilmiş xidməti otaqlara baxıb.

General-polkovnik Vilayət Eyvazov görülən işləri yüksək qiymətləndirib, tapşırıq və tövsiyələrini verib. O, xalqımız üçün ən əlamətdar günlərdən biri olan Milli Qurtuluş Günündə iki yeni inzibati binanın açılışını məmnunluqla qeyd edərək əmin olduğunu bildirib ki, şəxsi heyət dövlətin göstərdiyi bu ali diqqət və qayğıya layiqli xidməti ilə cavab verəcəkdir.



fotolar Zeyni Hüseynovundur

Polisin filmi Hollivudda

Azərbaycanda "SSP Production" tərəfindən istehsal olunmuş "Şollerin arxivi" bədii filmi "2020 Hollywood Blood Horror festivalında sertifikata layiq görülüb. **Bu barədə "Şollerin arxivi" filminin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri, polis veteranı Cəlaləddin Qasımov məlumat verib.**

Qeyd edək ki, Hollywood Blood Horror Festivalı LA International onlayn film festivalıdır.

Ekran əsəri almanların Azərbaycana gəlişinin 200 illiyi münasibətilə və Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama dəstək olaraq çəkilib. Film Avropa mədəniyyətinə azərbaycanlıların sədaqətindən, Azərbaycan-Almaniya dostluğundan, ölkəmizin multikultural dəyərlərindən bəhs edir.

Triller janrında çəkilmiş filmdə Xalq artisti Sabir Məmmədov, Əməkdar artistlər Əjdər Zeynalov, Rövşən Kərimduxt, Ramiz Vəliyev, Sevda Ələkbərova, aktyor Mətləb Ərdəbilli və başqaları rol alıblar.

Ekran əsərinin süjet xətti ötən əsrin 40-cı illərində Azərbaycanda yaşamış alman mənşəli Şollerlər ailəsinin həyatı üzərində qurulub. Filmin çəkilişləri Gəncə, Göygöl, Tovuz və Bakıda aparılıb. Filmdə alman ailəsinin timsalında insan dramı, eyni zamanda, xalqımızın multikultural dəyərlərə sadiq qalması nəzərdən qaçmayıb.

Qeyd edək ki, dünyada böyük marağa səbəb olan "Şollerin arxivi" bədii filmi Azərbaycan kino tarixində beynəlxalq festivallarda ən çox uğur əldə edən ekran əsərlərindəndir.

Həmkarımızın çəkdiyi filmlər dünya film bazarında Vimeo, Amazon, ABŞ, İngiltərə, UDU Digital, Hollivud prodüserləri ilə əlaqə məkanı olan iPitch.tv-nin 18 film platformalarında yerləşdirilib.

Əslində, xalqın gücünə arxalanan "siyasətbaz"ların, daha doğrusu, köç dala qayıdanda qabağa düşən ağsaqların ucbatından dövlət və millət olaraq hansı təhlükələrlə üzbəüz qaldığımızı, itirdiklərimizi, yaşadıqlarımızı xatırlatmaq istəmirəm. Yenidən müstəqillik əldə etdikdən sonra tökülən qanları bihudə, özlərini isə guya xalqa azadlığı bəxş edən "fədailər" hesab edənlər hakimiyyətə gəlib uzun müddət iqtidar olmağı düşünsələr də tarixin sınaqları qarşısında aciz qaldılar. Çünki siyasi dünyagörüşün, idarəetmə təcrübəsinin sıfırın üzərində olması, xalqın sevgisini və etibarını qazana bilməmələri onlara iqtidar olmaq sevincini yaşamağa imkan vermədi.

Bu gün xarici donorların əli ilə Azərbaycanı XX əsrin əvvələrindəki siyasi və iqtisadi duruma salmaq, yenidən hakimiyyətə gəlmək istəyənlər keçmişlərini etiraf etməzlər, çünki o mərdlik onlarda yoxdur. Ancaq Xalq kiminsə xilaskar olduğunu etiraf edirsə, deməli, o, tarixdə Öndər kimi qalır.

Azərbaycanın müstəqil siyasət aparması, dünya birliyində Qafqazın ən güclü dövləti kimi yer tutması, bir çox güclərin qorxduğu TURAN birliyinin ideoloji mərkəzinə çevrilməsi, əlbəttə ki, bəzi planların pozulması ilə nəticələnir. İqtidar-Xalq birliyini sarsıtmaq istəyənlər isə "beşinci kalon"un "gücü"ndən faydalanmaq üçün ən iyrənc yollara, təhqirə belə əl atırlar.

Təhqir etmək mübarizə forması deyil.

Vətən daşı olaq, qürbətdən Vətənə atılan daş olmayaq...

Təhqir edənin şəxsiyyət kimi yox olmasının, öz şərəfini, vicdanını satmasıdır ki, onu sözlə bir başqa cür ifadə etmək olmur. **Vətən daşı olmaq istəməyənlərin Vətənə daş atmağını zaman gələcək tarix onlara bağışlamayacaq.**

Azərbaycan Konstitusyası hər kəsə özünü ifadə etmək, yəni söz azadlığı hüququnu verib. Ancaq təəssüflər olsun ki, bəzi "düşüncə" sahibləri bu gün Avropanın, Amerikanın özündə belə qadağalar kimi tətbiq olunan nəsnələri ölkəmizdə sınaqdan keçirmək üçün özünü "pioner" elan etmək istəyir, qanunsuz əməlinin qarşısı alındıqda isə "ölkə polis qanunları ilə idarə olunur" deyirlər. Bax, elə dəhşət də budur. Bu satılmışlar, guya özlərini çoxbilmiş "siyasi fəal", "bloqqer" hesab edənlər ölkəmizdə sabitliyi, əmin-amanlığı qoruyanları düşmən kimi qələmə verməyə çalışsalar da Xalq dünən olduğu kimi onun uğrunda bu gün də canını, qanını verənləri yaxşı tanıyır...

Məhəmməd Mirzəli adlı satılmışın anası "Yutub"dan Azərbaycan xalqına çağırış edir. Ssenariyə uyğun "üyüdüb tökür". "Sadəcə adam gəlib bu "haqqı" danışan qadının qulağına millətə dərs keçməkdənsə, yaxşı valideyn olub leksikonu söyüşdən və təhqirdən ibarət olan gədənə tərbiyə ver" sözünü pıçıldamaq istəyir. Daha dəhşətlisi, adına ziyalı deyilən biri sosial şəbəkədə yazır: "Bakı küçələrində polislər gestapo kimi gəzir, vahimə adamı basır". Vətənə daş atanların siyahısını uzatmaq olar...

Xalqın sualı: 1993-cü ilin 15 iyununda bu Vətəni və xalqı parçalanmaqdan, bölünməkdən, yenidən qırmızı ulduzluların əsarətinə düşməkdən Qoruyanın, ulu öndər Heydər Əliyevin yanında siz niyə yox idiniz?

İqtidarı deyil, həm də doğulduğu ölkəni söyənlər görəsən bircə dəfə sığındıqlarına bizim Xocalı faciəmiz var deyiblərmi, bircə kərə də olsun bayrağımızı alıb "Xocalıya ədalət!" üçün bir araya gəliblərmi? Yox!

...Daşın təyinatı məlumdur. Ondan qorunmaq üçün də istifadə etmək olar. Üst-üstə qoyanda isə daş evə, ocağa, yurda çevrilir. Bu gün yurdumuzda daşın-daş üstə qalmasını, daşın Vətən olmasını görmək istəməyənlərlə həm daxildə, həm də xaricdə Xalq olaraq mübarizə aparırıq. Onlar bizi daşlasınlar, eybi yox, ancaq unutmasınlar ki, "daldan atılan daş topuğa dəyər", ya da ki, heç topuğa belə gəlib çatmaz...

Hafiz Təmirov,
polis polkovnik-leytenantı

XİDMƏTİ HEYVANLARIN YETİŞDİRİLMƏSİNƏ XÜSUSİ DİQQƏT YETİRİLİR

DİN Daxili Qoşunlarında həvalə olunmuş vəzifələrin uğurla yerinə yetirilməsi - bir sıra mədəni-kütləvi tədbirlər, beynəlxalq festivallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin qorunması, yarışların keçirildiyi sarayların, komplekslərin etibarlı mühafizəsi zamanı xidməti heyvanlardan istifadə olunur. Bu baxımdan onların yetişdirilməsi, saxlanılması və təyinatı üzrə tətbiq olunması əsas diqqət yetirilən sahələrdən biridir.

Daxili Qoşunların "N" saylı hərbi hissəsində olarkən xidməti heyvanların saxlanılma şəraiti, yetişdirilməsi, onlara göstərilən qulluq, eləcə də xidmətə hazırlanması prosesləri ilə yaxından tanış oldum.

KİNOLOQLARIMIZ ONLARIN DİLİNİ YAXŞI BİLİRLƏR.

İlk olaraq, Daxili Qoşunların Xidməti itləri yetişdirmə məntəqəsinə baş çəkdim. Buradakı təmizlik, sanitar-gigiyena qaydalarına ciddi riayət olunması ilk baxışdan diqqəti cəlb edir. Ərazidə əkilmiş dekorativ ağac və qızılgül kolları xoş təəssürat yaradır.

Xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlığı, yemlənməsi və bəslənməsi haqqında suallarımızı məntəqə rəisi, mayor Pərviz Əliyev cavablandırdı. Dedi ki, məntəqədə olan xidməti itlər, əsasən, beş istiqamətdə - partlayıcı maddələrin, eləcə də silah-sursatın axtarışı və yerinin müəyyən edilməsi, qarovul və mühafizə xidməti, patrul xidmətinin aparılması və silahlı cinayətkarın axtarılması və tutulması üzrə (iz axtarışı) hazırlanır.

Mayor P.Əliyev məntəqədə hal-hazırda müxtəlif cinslərə mənsub olan 30 baş xidməti itin saxlanıldığını da qeyd etdi: "Məntəqədə olan xidməti itlərin cins tərkibi müxtəlifdir. Belə ki, onlar alman ovçarkası və Belçika malinuası cinsinə mənsubdur.

Məntəqə rəisi onu da vurğuladı ki, gün ərzində xidməti itlərə iki dəfə qulluq göstərilir. Göstərilən qulluğa xidməti itlərin yemlənməsi, suyunun verilməsi, gəzintisinin təşkil olunması, daranması və s. daxildir.

Qeyd edək ki, xidməti heyvanların sağlamlığının qorunması da vacib şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlamlığı daim nəzarətdə saxlanılır, müxtəlif profilaktik baytarlıq tədbirləri olan vaksinasiya, dehelmintizasiya vaxtlı-vaxtında həyata keçirilir.

Təlimçilərin bilik səviyyəsinin yüksək olması və praktiki təcrübəsi başlıca şərtdir çünki qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xidməti itlərlə keçirilən təlimlərin keyfiyyətindən də asılıdır".

"FƏALİYYƏTİMİZƏ VERİLƏN YÜKSƏK QİYMƏT BİZƏ GÜC VERİR"

Xidməti atların saxlanılması, onlara lazım olan qulluğun göstərilməsində hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin süvari qrupunun şəxsi heyəti böyük rol oynayır. Qrup komandiri leytenant Nəzir Fəttayev dedi ki, Daxili Qoşunlarda xidməti atlardan post-patrul xidmətinin aparılmasında, mədəni-kütləvi tədbirlər keçirilən zaman, həmçinin, çətin keçilən dağ yollarında ağır yüklərin daşınmasında istifadə olunur. Həftənin şənbə günləri ixtisas hazırlığı üzrə qrup və yarımqrup komandirləri tərəfindən seminar məşğələlərində qrupun hərbi qulluqçularına atların minilməsi, sürmə qaydaları, kütləvi iğtişaşlar zamanı süvari qrupun fəaliyyəti və digər mövzular tədris olunur.

Gizir A.Səmədov söhbət zamanı bildirdi ki, atlara qulluq göstərilməsi və onlardan düzgün istifadə edilməsi məqsədilə hər bir at bir hərbi qulluqçuya təhkim olunur: "Atlar təhkim edilən zaman onların temperamenti, davranışı, həmçinin, hərbi qulluqçunun təcrübəsi də nəzərə alınır. Hərbi qulluqçu ona təhkim edilmiş xidməti atın xarakterik xüsusiyyətini bilməli və onlara uyğun davranış nümayiş etdirməyi bacarmalıdır. Bütün bu amillər təhlükəsizlik qaydalarının qorunub saxlanılması baxımından da xüsusi əhəmiyyət kəsb edir".

Diqqətimizə o da çatdırıldı ki, yeni doğulan atlara təlimlər əsas etibarı ilə 2 yaşından sonra keçirilir. İki yaşına qədər isə onun tam sağlam olaraq yetişdirilməsi vacib şərtdir. Xidməti atların sağlam yetişdirilməsi üçün onlara vaxtlı-vaxtında zoobaytarlıq qaydalarına uyğun qulluğun göstərilməsi zəruridir.

Müşahidələrimiz onu deməyə əsas verir ki, bu gün Daxili Qoşunlarda xidməti atların yetişdirilməsi üçün lazım olan bütün şərait mövcuddur. Ümumiyyətlə, bu sahənin inkişafı DİN rəhbərliyinin və Daxili Qoşunların komandanlığının diqqət mərkəzindədir.

Xədicə Hacızadə,
baş leytenant

HƏYAT ONLARI DA SINAYIR...

Ömürlərə ömür calamaq, ümid yeri olmaq, xəstələrə şəfa vermək gərəkli və müqəddəs işdir. Elə bu nəcib peşələrinə görə tibb işçiləri hər cür hörmət və ehtirama layiqdirlər. Həkim olmaq həyatını, vaxtını, istirahətini həyat qurtarmaq üçün fəda etmək deməkdir.

Bütün dünyada COVID-19 pandemiyasının yayılması həkimlərimizin həyatımızdakı rolunun nə qədər mühüm olduğunu bir daha göstərdi. "Azərbaycanda həkim yoxdur" deyənlər doğmasını, əzizini xilas edən, gecə-gündüz bilməyən həkimləri görəndə vicdan əzabını ifadə etməyə söz tapmadılar...

Ağ xalatlı xilaskarların əməyini və əziyyətini bu gün bütün dünya görür və qiymətləndirir. İlin əvvəlindən başlayaraq bəşəriyyəti cənginə alan koronavirus epidemiyası ilə mübarizə aparan, öz canlarını təhlükəyə ataraq, insanları bu bəladan qorumağa çalışan, günlərlə ailələrindən, uşaqlarından ayrı düşən həm də onlardır. Təəssüflər olsun ki, bu bəla həkimlərimizin də ömrünü yarıda qoyur. Hər gün onlarla xəstəni müayinə edərkən xəstə ilə bir həyəcan keçirir, nəticələrin cavabının yaxşı çıxması üçün dua da edirlər. Axı bu çətin və şərəfli peşəni seçərkən insanların sağlamlığının keşiyində duracaqlarına, neçə-neçə xəstəni həyata qaytaracaqlarına and içiblər. Bu gün onların içdikləri anda sədaqəti göz önündədir.

Əgər bizlər sağlamlığımızı düşünərək gücləndirilmiş karantin rejiminə riayət etsək, atdığımız hər bir məsuliyyətli addım pandemiyanın sona çatmasına və fədakar həkimlərimizin, polislərimizin ailələrinə qovuşmasına səbəb olacaq.

Yeri gəlmişkən, hər il iyunun 17-i Azərbaycan Respublikasında tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Biz də bu əlamətdar gün münasibətilə DİN-nin hər bir əməkdaşına, onun ailə üzvlərinə, təqaüdçülərinə və mülki işçilərinə yüksək qayğı və tibbi kömək göstərən DİN-nin A.Heydərov adına Respublika Hospitalının, 1 və 2 nömrəli poliklinikalarının təcrübəli, peşəkar və qayğıkeş tibb ailəsinə təşəkkürümüzü bildirir, bu çətin günlərdə səbr, dözüm arzulayırıq.

Və Azərbaycan xalqı sizlərin fədakarlığını heç vaxt unutmayacaq...

Ruhiyyə Əliyeva,
polis baş leytenantı

Rəğbətə layiq ömür...

Uzun illər ömrünü-gününü daxilil işlər orqanlarında ləyaqətli xidmətə həsr edib. Onu tanıyanlar yaxşı bilir ki, məğrurluğu, bacarığı ilə təkcə çalışdığı xidmətlərin kollektivlərində deyil, çoxlarının hörmətini və rəğbətini qazanıb. O, həmişə özündəki "Məni" qoruyub-saxlamağı bacarıb. Heç vaxt əqidəsindən dönməyib. İllər saçlarını ağardıb, amma qəddi-qaməti əyilməyib. Zəhmli görünsə də səmimi, qayğıkeş və söhbətcildir.

DİN Veteranlar Şurası sədrinin müavini, istefada olan polis polkovniki Ramiz Axundov 1948-ci ildə Şirvan şəhərində doğulub. Hələ orta məktəbdə oxuyarkən fəallığı və təşkilatçılıq bacarığı ilə seçilib. Moskva Kooperasiya institutunu 1975-ci ildə bitirdikdən sonra 1977-ci ildə Bakı Ali Partiya Məktəbinə daxil olub. 1984-1987-ci illərdə Bakı Xüsusi Orta Milis Məktəbində təhsil alan R.Axundov oranı bitirdikdən sonra taleyini daxili işlər orqanlarında xidmətə bağlayıb.

Xidmət etdiyi dövrdə bir çox mükafatlara layiq görülüb, o cümlədən 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İgidliyə görə" medalı ilə təltif olunub.



Veteran həmkarlarımızın örnək olacaq həyat yolu bizim üçün bir məktəbdir. Onlar cinayətlərin qarşısının alınması və açılması, təqsirləndirilən şəxslərin axtarışı, tutulması, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidməti fəaliyyətin təşkilində, narkomaniyanın, yetkinlik yaşına çatmayanlar arasında hüquqazidd əməllərin profilaktikasında və əhali arasında, təhsil müəssisələrində aparılan hüquqi maarifləndirmədə də bu gün yaxından iştirak edir, gənc əməkdaşlara böyük dəstək olurlar...

Mən Ramiz müəllimi dinlədikcə bir insan urəyinin böyüklüyünün, sözün əsl mənasında, bir daha şahidi oldum. Ömür kitabını vərəqləyən, illərin o tayına xəyalən səfər edən ağsaqqal həm özü kövrəldi, həm də məni kövrəltdi. Mənə elə gəldi ki, o bu illər ərzində ürəyi ilə əlbəyaxa olub, sanki bu günü gözləyirmiş... Amma mən onun gözlərində geridə qoyduğu illərin xətircamlığını da gördüm. Söhbətimiz əsnasında elə ilk sözü bu oldu ki, gərək hər zaman işinə vicdanla yanaşasan. "Bütün dünyadakı qlobal dəyişikliklər bizdən də yan ötməyib. Azərbaycan Polisi bu gün dövlətin, dövlətçiliyin müdafiəsində qətiyyətli mövqe tutub, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə həyatını riskə ataraq qətiyyət göstərir. Təəssüflər olsun ki, bu xüsusi karantin rejimində polisə qara yaxmaq istəyənlər də diqqətimizdən yayınmır. Şərlə, böhtanla polisin nüfuzuna xələl gətirməyə çalışanlar bilməlidirlər ki, xalqımız polisinə inanır, ona güvənir",-deyir hörmətli veteranımız.

Aytəkin Nəcəfova,
polis polkovnik-leytenantı

Media ilə iş günün tələbidir

Kütləvi informasiya vasitələrinin cəmiyyət həyatında rolu danılmazdır. Bu gün dünyanı cənginə alan pandemiya ilə əlaqədar yaranmış vəziyyətdə dünyada və ölkəmizdə görülən tədbirlərlə bağlı məlumatların dürüst və ətraflı çatdırılması xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən də kütləvi informasiya vasitələri əməkdaşlarının qarşısında mühüm vəzifələr durur.

Hökumətin pandemiyaya qarşı mübarizəni hansı səviyyədə təşkil etməsi, karantin rejimi ilə bağlı dövlətin səfərbər olunmuş bütün qurumlarının, xüsusən də polis əməkdaşlarının, həkimlərin böyük bir məsuliyyətlə xidmətlərinin cəmiyyətə açıqlanması nə dərəcədə əhəmiyyətlidirsə, verilən qərarların nəticələrinin də ictimaiyyətə çatdırılması bir o qədər vacibdir.

Odur ki, informasiya əldə edəndə və ötürəndə ehtiyatlı olmalıyıq. Çünki informasiya istənilən cəmiyyətdə xaos yarada bilər. Bu səbəbdən onun yayılmasında bir sıra məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

Polis-media münasibətlərinə gəlincə, qeyd etmək istərdik ki, KİV nümayəndələrinə hər zaman açıq olan Daxili İşlər Nazirliyi keçirilən tədbirlər barədə mütəmadi olaraq məlumatlar verir, daxil olan sorğuları cavablandırır və operativliyi ilə seçilir.

Natiq Abdullayev,
polis kapitanı

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi və əməliyyat müvəkkili vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2020-ci il may ayının 18 - dən iyun ayının 18 - dək **http://www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən doldurarak elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- ali təhsil haqqında diplom;
- hərbi bilet;
- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** ünvanlı Veb saytında yerləşdirilmişdir.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:

(012) 590-93-51;
(012)-590-94-12;
(012) 590-93-64;
(012) 590-80-66.

DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

Qanunvericilik aktları və nəzəri bilik sahələri:

-Azərbaycan Respublikasının Konstitusiyası
-Dövlət və hüquq nəzəriyyəsi
-Cinayət hüququ
-Cinayət prosesi
-İnzibati hüquq
-Kriminalistikanın əsasları
-Kriminalogiyanın əsasları
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu
-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu

DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

Qaçış: ***100 (yüz) metrə-15 saniyə, 1000 (min) metrə-4 dəqiqə;***

Turnikdə dartınma:

- çəkisi 80 kiloqramadək-10 dəfə;
- çəkisi 80 kiloqramdan yuxarı-6 dəfə;

Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi-20 dəfə;

Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi-20 dəfə.

"XƏZRİ" sizi gözləyir!

Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2020-ci il tarixlərdə mövsüm üzrə qiymətləri
(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)

Qeyd: 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobuslar gəlir.
Telefon: (+99412) 554-47-60;
Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;
Faks: (+99412) 453-63-33;
Poçt indeksi: AZ1090
E-poçt: info@khazribaku.az
Veb-sayt: www.khazri.mia.gov.az

01 iyun - 15 sentyabr 2020-ci il

(2 nəfərlik standart otağın güzəştsiz qiyməti :

iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)

	2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün	2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda
Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə)	33,75 manat	52,50 manat
Onun ailə üzvü (50% güzəştlə)	67,50 manat	105,00 manat
Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə)	30,00 manat	
Kənar şəxslər (güzəştsiz qiymət)	135,00 manat	210,00 manat
Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət)	60,00 manat	

TORPAQDA İZİ QALANLAR

Uğrunda canını verdiyi bu torpağın üstündə nə qədər ki, onun kimi oğulların ürəyi Vətən üçün döyünür, o da hər an xatırlanıb, yada düşəcək. Daha doğrusu, nə yaddan çıxıblar, nə də ki, unudulublar. Xatırlayırıq, xatirimizdədirlər.

Polis baş leytenantı Faiq Rəfiyev 1955-ci ildə Füzuli rayonunda dünyaya göz açmışdı. Rusiyanın Arxangelsk vilayətində xidmətini başa vurduqdan sonra daxili işlər orqanlarına qəbul olunmuşdu. Ermənilərin Dağlıq Qarabağ iddiaları baş qaldıranda o da silahdaşları kimi Vətənin səsinə səs vermişdi.

Xidməti təcrübəsi nəzərə alınaraq Xocavənd rayonuna sahə müvəkkili təyin edilir.

Axullu, Tuğ, Qaradağlı kəndlərində əsl qəhrəmanlıq göstərmiş, düşmənin texnikasını və canlı qüvvəsini məhv etmişdi. Həmin vaxt Koçbəy kəndi də erməni quldurlarının yuvasına çevrilmişdi. O, 1992-ci il yanvarın 10-da kəndi erməni quldurlarından təmizləmək üçün plan hazırlayır. Hücum nəticəsində ermənilər ağır itki verərək geri çəkilsələr də Faiqin ürəyi qəfil atılan düşmən gülləsinə tuş gəlir. Doğulduğu Sarıcıq kəndində dəfn edilib. Ailəli idi. İki övladı var.

Azərabaycan Resbublikası Prezidentinin 2 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Rəfiyev Faiq Qəzənfər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Lökbətan qəsəbəsindəki 166 saylı orta məktəb onun adını daşıyır.

Natiq Abdullayev,
polis kapitanı

2020-ci ilin II yarısı üçün "Mübariz keşikdə"yə-öz qəzetinizə abunə olmağa tələsin!

xx əsrin "unudulmayan" cinayətləri

15 yanvar 1947-ci ildə belindən iki yerə bölünmüş qadın cəsədi tapılıb. 22 yaşlı kaliforniyalı gənc qızın üzünün bəzi hissələri də oyulmuş olub. Aktrisa olmaq istəyən Şort məqsədinə çata bilmədiyi üçün ofisiant işləməyə başlayıb. O, Amerika Hava Qüvvələrində xidmət edən bir gənclə nişanlanıb. Qızın nişanlısı 1945-ci ildə həlak olub. Uzun illər bu cinayət araşdırılsa da, heç bir nəticə əldə olunmayıb. Gənc qızın ölümü haqqında bir çox kitablar yazılıb və filmlər çəkilib.

*****

Los Ancelesdə 1969-cu il avqustun 9-u və 10-u iki qəribə cinayət törədilib. Ayın 9-da rejissor Roman Polanskinin 8 aylıq hamilə arvadı Şeron Teyt, Teytin dörd dostu və bağbanının oğlu 4 nəfərlik dəstə tərəfindən öldürülüb. Sonrakı gün supermarket müdiri Leno Labayinsa və arvadı eyni şəkildə qətlə yetirilib. Supermarket müdirinin arvadının qarnına çəngəllə "WAR", yəni "müharibə" yazıblar. 5 aya qədər davam edən araşdırmadan sonra Çarlz Menson adlı şəxs yaxalanıb. Cinayəti törətmiş bu şəxsin psixi vəziyyəti yerində olmadığından, əvvəlcə edam cəzası çıxarılsa da, sonra həbslə əvəz olunub.

*****

Con Veyn Qeys kloun qiyafəsinə girərək uzun müddət qonşu uşaqlarını əyləndirib. Daha sonra qonşular uşaqlara cinsi təcavüz iddiası ilə polisə şikayət ediblər. Şikayət öz təsdiqini 1978-ci ildə tapıb. Qeysin evində, bağça və qarajında axtarış keçirən polis 28 gənc oğlanın meyitini tapıb. Hər şeyi boynuna alan Qeys 4 cəsədi də çaya atdığını deyib. Sonra edam cəzası alıb.

*****

Jefri Dahmer ən azı 17 dəfə yeniyetmə oğlan və qızları evinə gəlməyə razı salaraq öldürüb. Cəsədləri parçalayaraq qablara dolduran Dahmer sonra onları yeyir, kəllə sümüklərini isə xatirə olaraq saxlayırdı. 22 iyul 1991-ci ildə tutulan cinayətkara min il həbs cəzası verilib. O, 3 il keçməmiş həbsxana yoldaşı tərəfindən öldürülüb.

*****

Antropoloq Çarlz Dauson 1912-ci ildə insan və meymun arasındakı keçidin sübutu olan kəllə sümüyü tapdığını iddia edib. Bu kəllə 40 ildən çox təkamül nəzəriyyəsinin əsas dayağı sayılıb. Ancaq 1953-cü ildə aparılan araşdırmalar kəllənin saxta olduğunu müəyyən edib.

Ruhiyyə Əliyeva,
polis baş leytenantı

Astara RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Maşxan kənd sakini, əvvəllər məhkum olunmuş M.Bəşirovun həyətindən kultivasiya yolu ilə yetişdirilmiş 8 ədəd çətənə kolu, yardımçı təsərrüfatından isə 6,1 kiloqram marixuana aşkar edilərək götürülmüşdür.

*****

Nərimanov RPİ-nin 18-ci Polis Şöbəsinə müraciət edən əcnəbi vətəndaş iyunun 9-da rayon ərazisində 3 nəfərin onu döyərək cibindən 1000 manat pulunu götürməsini bildirmişdir.

Dərhal başlanılmış əməliyyat-axtarış tədbirləri nəticəsində bu cinayət əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri S.Qəmbərzadə, A.Məlikov və K.Qurbanov müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılmışlar.

*****

Sabunçu RPİ 14-cü PB əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Maştağa qəsəbəsində yaşayan R. Cabbarovun həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 172 ədəd çətənə kolu və 5 kiloqramdan artıq marixuana aşkar edilərək götürülmüşdür.

ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

*****

Xətai RPİ 35-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində martın 20-dən iyunun 10-dək olan müddətdə rayon ərazisindəki mənzillərin birindən 50.000 manat dəyərində məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri D.Borisov və R.Vəliyev saxlanılmışlar.

İyun ayının 10-dan 16-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 172 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 59 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 108, o cümlədən borclu şəxs qismində axtarışda olan 30 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 16 nəfər ölmüş, 13 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 114 fakt müəyyən edilmişdir.

Türkiyədə iyunun 15-dən etibarən nikah, iyulun 1-dən isə toy mərasimlərinin keçirilməsinə icazə veriləcək. Amma bu mərasimlər xüsusi qaydalar çərçivəsində keçiriləcək. Bununla bağlı Daxili İşlər Nazirliyi tərəfindən bir sıra qərarlar qəbul olunub.

Bu qərarlara əsasən, ilk növbədə, mərasim zamanı bir neçə nəfərin bir yerdə toplanaraq ailə fotosu çəkdirməsinə icazə verilməyəcək. Cütlüklər də daxil olmaqla hər kəs maska taxacaq. Ümumiyyətlə, mərasimlərin havalandırma sistemi olan məkanlarda və ya açıq havada olduqca qısa zaman ərzində keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, mərasim keçirilən zaman masalar arasında 1,5 metrlik ara məsafəsi tətbiq olunacaq. Şənliklərdə iştirak edənlərin sayı isə ərazinin kvadratmetrinə görə hesablanacaq, qonaqların hərarəti ölçüləcək.

*****

Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən axtarışda olan Firaz Amed ləqəbli təhlükəli terrorçu İzzet Yiğit Elazığın Arıcak rayonunun Göresedağı bölgəsində keçirilən antiterror əməliyyatında məhv edilib.

Terrorçu İ.Yiğit üç il əvvəl Diyarbəkirdə 16 mülki şəxsin öldüyü və Elazığda 3 polis zabitinin şəhid edildiyi terror aktlarına və digər cinayətlərə görə ittiham olunurdu. Onun axtarışı üçün 1 milyon türk lirəsi (təxminən 146 min ABŞ dolları) vəsait ayrılmışdı. İzzet Yiğit ilə bir yerdə zərərsizləşdirilən digər terrorçu Devrim Devran ləqəbli Salih Ekinci olub. S.Ekincinin də axtarışına eyni məbləğdə vəsait ayrılmışdı.

*****

"Amazon" şirkəti polislərə "Rekognition" üz tanıma proqramından istifadəni qadağan edib. Bu barədə şirkətin bloqunda bildirilib.

"ABŞ hökumətinin üz tanıma sistemləri və texnologiyalarını tənzimləyə biləcək "daha sərt qaydalar" tətbiq etməsi vacibdir", - deyə "Amazon"dan bildirilib.

Mediada yayılan məlumata görə, "Amazon" ABŞ hökumətinin üz tanıma sistemlərindən istifadə etməklə insan hüquq və azadlıqlarını pozduğuna inanır.

*****

ABŞ-ın "Maykrosoft" korporasiyası ölkə polisinə üz tanıma texnologiyasını satmaqdan imtina edib. Bunu şirkətin prezidenti deyib. O bildirib ki, ölkədə qanun işləmədiyi müddətdə şirkət bu texnologiyaları polisə verməyəcək.

Qeyd edək ki, bundan öncə oxşar addımı İBM şirkəti atıb.

*****

Nyu-York ştatının qubernatoru "Polis İslahatı haqqında Qanun" layihəsini təsdiq edib. Qanun layihəsi afroamerikalı Corc Floydun polis zorakılığı nəticəsində ölümünə görə kütləvi etirazlar başlayandan sonra hazırlanıb. Məlum etiraz aksiyalarından sonra polislə bağlı yeni müddəaları özündə əks etdirən qanun layihəsi ştatın qanunverici orqanı tərəfindən qəbul edilib.

"Biz bütün ölkəyə necə davranacağımızı nümayiş etdirməliyik", deyən qubernator polis və cəmiyyət arasında etimadın bərpa edilməsinin vacibliyini bildirib.

Yeni qanuna görə, polis əməkdaşları saxladıqları şəxsə qarşı sərt boğma üsullarından istifadə etdikləri təqdirdə onları 15 ilədək həbs cəzası gözləyir. Həmçinin silahsız vətəndaş polisin müdaxiləsi zamanı həyatını itirərsə Baş prokurora bütün işlərə baxmaq səlahiyyəti verilir.

Natiq Cavadov

DÜNYAYA PƏNCƏRƏ

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik